**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş
nazirinin birinci müavini
Yaqub Eyyubov

________________

26.04.2023-cü il

## Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılması ilə əlaqədar 2023-cü il üzrə Yol Xəritəsi

| Sıra №-si | Tədbirin adı | Son icra tarixi | İcraçı qurumlar | Məsul şəxslər | Nəticə indikatoru |
|---|---|---|---|---|---|
| **I. Qlobal elmi məkana inteqrasiya** | | | | | |
| **1.** | Elm və təhsil müəssisələrinin əməkdaşlarının daha öncə çap edilmiş, lakin internetdə olmayan məqalələrinin mövcud olan açıq akademik sistemlərdə (məs., ResearchGate, Academia, SSRN və s.) yerləşdirilməsi istiqamətində həyata keçirilən işlərin daha da intensivləşdirilməsi | 01.12.2023 | Elm və Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA), Ali Attestasiya Komissiyası, elm və təhsil müəssisələri | Turxan Süleyman, Esmira Əlirzayeva, Elşən Bağırzadə, Nazim Əliyev | Açıq akademik sistemlərdə yerləşdirilən əvvəlki illərə aid məqalələrin sayı |
| **2.** | Azərbaycanda mövcud olan elmi jurnalların internet səhifələrinin istinad hesablamalarına texniki imkan verəcək şəkildə yenilənməsinin (bu məqsədlə ödənişsiz proqram təminatı olan Open Journal Systems platformasından istifadə edilməsi tövsiyə oluna bilər) təmin edilməsi | 01.12.2023 | Elm və Təhsil Nazirliyi, Ali Attestasiya Komissiyası, elm və təhsil müəssisələri | Turxan Süleyman, Sakin Cabarov, Elşən Bağırzadə | İnternet səhifələri yenilənmiş elmi jurnalların sayı |
| **3.** | Elm və ali təhsil müəssisələrinin internet səhifələrində akademik heyət üzvlərinin mütəmadi yenilənən fərdi səhifələrinin yaradılması və müəlliflərin bütün nəşrlərinə keçidlərin həmin səhifələrə inteqrasiya edilməsi | 01.12.2023 | Elm və Təhsil Nazirliyi, AMEA, elm və təhsil müəssisələri | Turxan Süleyman, Esmira Əlirzayeva, Elşən Bağırzadə | Qeyd olunan tələblərə cavab verən fərdi səhifələri yaradılmış akademik heyət sayı |

| | | | | | |
|---|---|---|---|---|---|
| **4.** | Beynəlxalq elmmetrik bazalarda (məs., SCOPUS, Web of Science və s.) elm və ali təhsil müəssisələrinin korporativ profillərinin, professor-müəllim heyətinin isə şəxsi profillərinin yaradılması və əməkdaşların şəxsi profillərinin institusional profillərlə əlaqələndirilməsi üzrə zəruri tədbirlərin həyata keçirilməsi | 01.12.2023 | Elm və Təhsil Nazirliyi,<br>AMEA,<br>elm və təhsil müəssisələri | Turxan Süleyman,<br>Esmira Əlirzayeva,<br>Elşən Bağırzadə | Yaradılmış korporativ profil sayı<br><br>Yaradılmış və institusional profillərlə əlaqələndirilmiş şəxsi profil sayı |
| **5.** | Elm və ali təhsil müəssisələrinin beynəlxalq elmi bazalara çıxışının mərkəzləşmiş qaydada dövlət tərəfindən maliyyələşdirilməsi ilə bağlı təqdim olunmuş müvafiq təkliflərin icrası üzrə zəruri tədbirlərin görülməsi | 01.12.2023 | Elm və Təhsil Nazirliyi,<br>Maliyyə Nazirliyi,<br>AMEA,<br>digər aidiyyəti qurumlar | Turxan Süleyman,<br>Kamran Rəsulov,<br>Esmira Əlirzayeva,<br>Elşən Bağırzadə | “Elsevier” və “Clarivate Analytics” bazalarına çıxışı maliyyələşdirilmiş müəssisə sayı |
| **6.** | Beynəlxalq impakt faktorlu jurnallarda çap olunan məqalələrin sayının və keyfiyyətinin artırılması istiqamətində təşəbbüslərin dəstəklənməsi | Mütəmadi | Elm və Təhsil Nazirliyi,<br>AMEA,<br>Azərbaycan Elm Fondu | Turxan Süleyman,<br>Mehriban İmanova,<br>Nəriman Qəhrəmanlı | Azərbaycanın SCOPUS və “Web of Science” bazaları üzrə:<br>- çap olunmuş yeni məqalə sayı;<br>- orta istinad indeksi;<br>- H-indeksi. |
| **7.** | Yerli elmi jurnalların nüfuzunun yüksəldilməsi və yenilərinin yaradılması istiqamətində zəruri tədbirlərin görülməsi | Mütəmadi | Elm və Təhsil Nazirliyi,<br>AMEA,<br>Ali Attestasiya Komissiyası,<br>elm və təhsil müəssisələri | Nəriman Qəhrəmanlı,<br>Esmira Əlirzayeva,<br>Sakin Cabarov | Q1 və Q2 kateqoriyalı jurnalların sayı |
| **8.** | Elmi nəşrlərin hazırlanması (o cümlədən elmi jurnalların beynəlxalq elmi məlumat bazalarına (SCOPUS, Web of Science və s.) uyğun indeksləşdirilməsi) sahəsində mövcud tələblərin beynəlxalq təcrübəyə uyğunlaşdırılması ilə bağlı tədbirlər planının hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 01.11.2023 | Ali Attestasiya Komissiyası,<br>AMEA,<br>Elm və Təhsil Nazirliyi,<br>elm və təhsil müəssisələri | Sakin Cabarov,<br>Esmira Əlirzayeva,<br>Turxan Süleyman | Aidiyyəti üzrə təqdim olunmuş tədbirlər planı |
| **9.** | Azərbaycanda SCOPUS və “Web of Science” indeksli beynəlxalq tədbirlərin (konfransların, forumların, seminarların və dəyirmi masaların) keçirilməsi | 01.12.2023 | Elm və Təhsil Nazirliyi,<br>AMEA,<br>Azərbaycan Elm Fondu,<br>Ali Attestasiya Komissiyası,<br>elm və təhsil müəssisələri | Turxan Süleyman,<br>Esmira Əlirzayeva,<br>Mehriban İmanova,<br>Sakin Cabarov | İl ərzində keçirilmiş beynəlxalq tədbirlərin sayı |
| **10.** | Elm və təhsil müəssisələrində elmi fəaliyyətin qiymətləndirilməsi üçün milli reytinq sisteminin yaradılması ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 01.10.2023 | Elm və Təhsil Nazirliyi,<br>İqtisadiyyat Nazirliyi,<br>AMEA,<br>Dövlət Turizm Agentliyi,<br>elm və təhsil müəssisələri | Kamran Rəsulov,<br>Arzu Hüseynova,<br>Nəriman Qəhrəmanlı,<br>Nazim Əliyev,<br>Nicat Abbaslı,<br>Mirnamik Bəşirov,<br>Emin Qəribli | Milli reytinq sisteminin yaradılması ilə bağlı təqdim olunmuş təkliflər paketi |

| | | | | | |
|---|---|---|---|---|---|
| **II. Elmi əqli potensialın gücləndirilməsi** | | | | | |
| **11.** | Elm və ali təhsil müəssisələrində tədqiqat səriştələrinin təkmilləşdirilməsi və tədqiqat mədəniyyətinin formalaşdırılması üçün hazırlanmış pilot proqram(lar)ın tətbiqi | 01.10.2023 | Elm və Təhsil Nazirliyi, AMEA, Dövlət Turizm Agentliyi, elm və təhsil müəssisələri ("Ekvita" şirkəti cəlb edilməklə) | Ülkər Səttarova, Esmira Əlirzayeva, Eldar Qocayev, Nicat Abbaslı, Arzu Hüseynova, Emin Qəribli, İlqar Mehti | Ən azı 1 pilot proqramın tətbiqi |
| **12.** | Elm və təhsil müəssisələrində tələbələrin tədqiqat yönümlü bacarıqlarının və metodoloji səriştələrinin artırılması, o cümlədən istinad mədəniyyətinin formalaşdırılması üçün cari il üzrə müvafiq tədbirlər planının hazırlanması və həyata keçirilməsi | 01.11.2023 | Elm və Təhsil Nazirliyi, AMEA, Dövlət Turizm Agentliyi, elm və təhsil müəssisələri, "Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin (H-indeksi) yaxşılaşdırılması üzrə" altqrup (H-indeksi üzrə altqrup) ("Ekvita" şirkəti cəlb edilməklə) | Ülkər Səttarova, Esmira Əlirzayeva, Eldar Qocayev, Nicat Abbaslı, Emin Qəribli, İlqar Mehti | Təsdiq olunmuş tədbirlər planı və onun müvafiq qaydada icrası |
| **13.** | Dissertasiya və elmi işlərin yazılması zamanı beynəlxalq səviyyədə qəbul olunan istinad sistemlərindən (məs., Harvard, APA, Chicago, ACM/IEEE, Vancouver, MLA və s.) istifadəni məcburi edən qaydaların hazırlanması və müvafiq qaydada təsdiq olunması | 01.11.2023 | Ali Attestasiya Komissiyası, Elm və Təhsil Nazirliyi, AMEA, elm və təhsil müəssisələri, H-indeksi üzrə altqrup ("Ekvita" şirkəti cəlb edilməklə) | Sakin Cabarov, Nəriman Qəhrəmanlı, Esmira Əlirzayeva, Arzu Hüseynova, Emin Qəribli, İlqar Mehti | Təsdiq olunmuş qaydalar |
| **14.** | Elm və ali təhsil müəssisələrinin akademik heyət üzvləri və tələbələri üçün elmi müsabiqələrdə iştirakla bağlı, eləcə də beynəlxalq və yerli təşkilatlar, fondlar tərəfindən maliyyələşdirilən elmi-tədqiqat layihələrinə müraciət prosedurları üzrə təlimlərin keçirilməsi | Hər rüb | Elm və Təhsil Nazirliyi, Azərbaycan Elm Fondu, AMEA, elm və təhsil müəssisələri, H-indeksi üzrə altqrup ("Ekvita" şirkəti cəlb edilməklə) | Turxan Süleyman, Mehriban İmanova, Eldar Qocayev, Emin Qəribli, İlqar Mehti | Qeyd olunan mövzuda keçirilən təlimlər və bu təlimlərə cəlb olunmuş müdavim sayı |
| **15.** | Tədqiqatçıların xarici akademik dil biliklərinin və rəqəmsal səriştələrinin artırılması üçün proqram(lar)ın hazırlanması və həyata keçirilməsi | 01.09.2023 (proqramların hazırlanması)<br><br>Mütəmadi (proqramların icrası) | Elm və Təhsil Nazirliyi, AMEA, elm və təhsil müəssisələri, H-indeksi üzrə altqrup ("Ekvita" şirkəti cəlb edilməklə) | Ülkər Səttarova, Esmira Əlirzayeva, Eldar Qocayev, Nəriman Qəhrəmanlı, Arzu Hüseynova, Emin Qəribli, İlqar Mehti | Hazırlanmış və həyata keçirilmiş proqramların sayı |

| | | | | | |
|---|---|---|---|---|---|
| **16.** | Tədqiqatçıların və elmi nəşrlərin əlaqəliliyini təmin etmək məqsədilə vahid milli elmi platformanın yaradılmasına dair təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 01.09.2023 | Elm və Təhsil Nazirliyi,<br>AMEA,<br>Dövlət Turizm Agentliyi,<br>elm və təhsil müəssisələri<br>(“Ekvita” şirkəti cəlb edilməklə) | Turxan Süleyman,<br>Arzu Hüseynova,<br>Emin Qəribli,<br>Nicat Abbaslı,<br>Mais Süleymanov,<br>İlqar Mehti | Elmi platformanın yaradılmasına dair təqdim olunmuş təkliflər paketi |
| **17.** | Assistent və ya elmi mentor proqramlarının təkmilləşdirilməsi | 01.11.2023 | Elm və Təhsil Nazirliyi,<br>AMEA,<br>elm və təhsil müəssisələri<br>(“Ekvita” şirkəti cəlb edilməklə) | Turxan Süleyman,<br>Elşən Bağırzadə,<br>Emin Qəribli,<br>İlqar Mehti | Təkmilləşdirilmiş proqram sayı |
| **III. Təşviq mexanizmlərinin formalaşdırılması** | | | | | |
| **18.** | Tədqiqatçıların nailiyyətlərini nəzərə alan yeni əmək haqqı sisteminin işlənməsi və çevik maliyyələşmə sisteminin tətbiqi ilə bağlı hazırlanmış konsepsiya sənədinin icrası üzrə zəruri tədbirlərin görülməsi, habelə elm və təhsil müəssisələrində hazırda mövcud olan analoji təşviq sistemlərinin dəstəklənməsi | 01.12.2023 | Elm və Təhsil Nazirliyi,<br>Maliyyə Nazirliyi,<br>H-indeksi üzrə altqrup | Ülkər Səttarova,<br>Fariz İsmayılzadə,<br>Elşən Bağırzadə,<br>Emin Qəribli | Konsepsiya sənədində yer alan tədbirlərin icra olunması |
| **19.** | Xarici ölkələrin qabaqcıl tədqiqat mərkəzləri ilə birgə elmi tədqiqatların və araşdırmaların aparılmasının təşviqi istiqamətində təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim olunması | 01.10.2023 | Elm və Təhsil Nazirliyi,<br>AMEA,<br>elm və təhsil müəssisələri,<br>H-indeksi üzrə altqrup | Altqrupun üzvləri | Təqdim olunmuş təkliflər paketi |
| **20.** | Elm və ali təhsil müəssisələrinin yeni maddi stimullaşdırma (diferensial əmək haqqı) sisteminə keçməsi, elmi-tədqiqat səriştələri olan akademik heyət üzvlərinin tədris yükünün müəyyən qədər azaldılması və onlara tədqiqatçı-alim statusunun verilməsi ilə bağlı zəruri tədbirlərin görülməsi | 01.11.2023 | Elm və Təhsil Nazirliyi,<br>Ali Attestasiya Komissiyası,<br>elm və təhsil müəssisələri | Ülkər Səttarova,<br>Sakin Cabarov,<br>Fariz İsmayılzadə,<br>Elşən Bağırzadə,<br>Emin Qəribli | Diferensial əmək haqqı sisteminə keçmiş müəssisə sayı<br><br>Tədqiqatçı akademik heyətin fəaliyyətinin tənzimlənməsi ilə bağlı tədbirlər görülmüş müəssisə sayı |
| **21.** | Qrant sahəsində müvafiq qanunvericiliyin təkmilləşdirilməsi yolu ilə ali təhsil və elm müəssisələrinin beynəlxalq qrant layihələrində iştirakının asanlaşdırılmasına dair təkliflərin işlənib hazırlanması və aidiyyəti üzrə təqdim olunması | 01.09.2023 | Elm və Təhsil Nazirliyi,<br>Ədliyyə Nazirliyi,<br>Maliyyə Nazirliyi,<br>Azərbaycan Elm Fondu,<br>AMEA,<br>elm və təhsil müəssisələri | Kamran Rəsulov,<br>Mehriban İmanova,<br>Esmira Əlirzayeva,<br>Turxan Süleyman | Müvafiq qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təqdim olunmuş təkliflər paketi |
| **22.** | Müxtəlif elmi sahələr üzrə alimlərin peşəkar birliklərinin qurulması və fəaliyyətinin səmərəli təşkilinə dəstək göstərilməsi | Mütəmadi | Elm və Təhsil Nazirliyi,<br>AMEA,<br>elm və təhsil müəssisələri | Turxan Süleyman,<br>Esmira Əlirzayeva,<br>Eldar Qocayev | Qurulmuş peşəkar birliklərin sayı |

| | | | | | |
|---|---|---|---|---|---|
| **23.** | Müxtəlif istiqamətlər üzrə qabaqcıl beynəlxalq peşəkar cəmiyyətlərə (məsələn, SPE, ACM, IEEE) yerli tədqiqatçıların üzvlüyünün təşviqi ilə bağlı təkliflərin hazırlanması və onların icrası | 01.12.2023 | Elm və Təhsil Nazirliyi,<br>AMEA,<br>elm və təhsil müəssisələri | Turxan Süleyman,<br>Esmira Əlirzayeva,<br>Elşən Bağırzadə,<br>Arzu Hüseynova | Qabaqcıl beynəlxalq peşəkar cəmiyyətlərə üzvlüyün təşviqi ilə bağlı hazırlanmış təkliflər paketi və onun icrası |
| **24.** | Elmi nəşrlərin stimullaşdırılması üzrə qabaqcıl beynəlxalq təcrübələrin öyrənilməsi məqsədilə belə təcrübələrə malik ölkələrə səfərlərin təşkil edilməsi və nəticələri barədə təkliflərin hazırlanması | İl ərzində | Elm və Təhsil Nazirliyi,<br>H-indeksi üzrə altqrup<br>(“Ekvita” şirkəti cəlb edilməklə) | Eldar Qocayev,<br>Elşən Bağırzadə,<br>Arzu Hüseynova,<br>Emin Qəribli,<br>İlqar Mehti,<br>altqrupun digər üzvləri | Nəticələri əsasında təkliflər təqdim olunmuş səfərlərin sayı |
| **25.** | Türkiyə Respublikasına 2022-ci ildə təşkil olunmuş səfər nəticəsində əldə olunmuş təcrübələrlə bağlı məqbul hesab olunan təkliflərin icrası üzrə zəruri işlərin görülməsi | İl ərzində | Elm və Təhsil Nazirliyi,<br>İqtisadiyyat Nazirliyi,<br>AMEA | Ülkər Səttarova,<br>Arzu Hüseynova,<br>Esmira Əlirzayeva | İcrası reallaşdırılmış təkliflər |
| **26.** | Özəl sektor tərəfindən elmi tədqiqatlara investisiya qoyuluşunun təşviq olunması ilə bağlı zəruri tədbirlərin görülməsi | 01.10.2023 | İqtisadiyyat Nazirliyi<br>(“Ekvita” şirkəti cəlb edilməklə) | Arzu Hüseynova,<br>Nazim Əliyev,<br>Emin Qəribli,<br>İlqar Mehti | Özəl sektor tərəfindən elmi tədqiqatlara qoyulmuş investisiya məbləği |
| **27.** | Gənc tədqiqatçıların fəaliyyətinin maliyyələşdirilməsi/ stimullaşdırılması sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, Azərbaycan üçün uyğun model(lər)in seçilərək aidiyyəti üzrə təqdim olunması | 01.09.2023 | Azərbaycan Elm Fondu,<br>H-indeksi üzrə altqrup | Mehriban İmanova | Seçilmiş və aidiyyəti üzrə təqdim olunmuş model təklifi |
| **28.** | Qrant və proqram məqsədli maliyyələşdirmə və kommersiyalaşdırma layihələri çərçivəsində nəticəyönümlü elmi layihələrin və proqramların həyata keçirilməsi | Mütəmadi | Azərbaycan Elm Fondu,<br>Elm və Təhsil Nazirliyi,<br>AMEA | Mehriban İmanova,<br>Eldar Qocayev,<br>Esmira Əlirzayeva | Həyata keçirilmiş elmi layihə və proqram sayı |
| **29.** | Doktorantura təhsilinin təşviq edilməsi və bu sahəyə dövlət dəstəyinin göstərilməsi | Mütəmadi | Elm və Təhsil Nazirliyi,<br>İqtisadiyyat Nazirliyi,<br>AMEA,<br>Ali Attestasiya Komissiyası,<br>Azərbaycan Elm Fondu,<br>Maliyyə Nazirliyi,<br>Dövlət Neft Fondu | Turxan Süleyman,<br>Mehriban İmanova<br>Arzu Hüseynova,<br>Nazim Əliyev,<br>Esmira Əlirzayeva,<br>Sakin Cabarov | Doktorantura səviyyəsi üzrə qəbul planının icra olunma faizi |

| | | | | | |
|---|---|---|---|---|---|
| **IV. Dövlətin elmi-tədqiqat sahəsində aydın hədəflərinin və qiymətləndirmə siyasətinin müəyyən edilməsi** | | | | | |
| **30.** | Elm və ali təhsil müəssisələrinin elmi-tədqiqat sahəsində fəaliyyətinin strateji planlaşdırılmasına dair konsepsiya sənədinin icrası üzrə zəruri tədbirlərin görülməsi | 01.12.2023 | Elm və Təhsil Nazirliyi, Ali Attestasiya Komissiyası, elm və təhsil müəssisələri | Ülkər Səttarova, Sakin Cabarov, Arzu Hüseynova, Nəriman Qəhrəmanlı, Elşən Bağırzadə | Konsepsiya sənədinin pilot olaraq tətbiq olunduğu müəssisələrin sayı |
| **31.** | Elm və ali təhsil müəssisələrinin qabaqcıl beynəlxalq reytinqlərdə (QS, ARWU) iştirakının təmin edilməsi və mövqelərinin yüksəldilməsi ilə bağlı zəruri işlərin görülməsi | 01.08.2023 | Elm və Təhsil Nazirliyi, elm və təhsil müəssisələri | Ülkər Səttarova, Nəriman Qəhrəmanlı, Emin Qəribli, Mirnamik Bəşirov | Reytinqlərə yeni daxil olmuş və ya irəliləyiş əldə etmiş müəssisə sayı |
| **V. Elmi nəşrlərin beynəlxalq standartlara uyğunlaşdırılması** | | | | | |
| **32.** | Nüfuzlu (istinad sayı yüksək olan) yerli və xarici alimlərin jurnalların redaksiya üzvlüyünə və jurnallarda məqalə çapına cəlb olunması ilə bağlı tədbirlərin həyata keçirilməsi | Mütəmadi | Elm və Təhsil Nazirliyi, Ali Attestasiya Komissiyası, Azərbaycan Elm Fondu, AMEA, elm və təhsil müəssisələri | Turxan Süleyman, Sakin Cabarov, Mehriban İmanova, Esmira Əlirzayeva, Arzu Hüseynova, | Jurnalların fəaliyyətinə müvafiq qaydada cəlb olunmuş alimlərin sayı |
| **33.** | Elmi məqalələrinə istinad sayı yüksək olan yerli alimlərin və reytinqi yüksək olan yerli nəşrlərin təcrübəsinin geniş yayılmasının təmin olunması | Mütəmadi | Elm və Təhsil Nazirliyi, Ali Attestasiya Komissiyası, AMEA, elm və təhsil müəssisələri | Turxan Süleyman, Sakin Cabarov, Arzu Hüseynova, Elşən Bağırzadə | Tədbirlərin əhatə etdiyi alim və nəşrlərin sayı |
| **34.** | Elmi-texniki məlumatların və hesabatların toplanması, elektron arxivləşdirilməsi və monitorinqi üzrə vahid mexanizmin yaradılması ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması | 01.10.2023 | Elm və Təhsil Nazirliyi, Ali Attestasiya Komissiyası, AMEA, Dövlət Turizm Agentliyi, elm və təhsil müəssisələri | Turxan Süleyman, Sakin Cabarov, Esmira Əlirzayeva, Nicat Abbaslı, Arzu Hüseynova, Emin Qəribli, Mais Süleymanov | Vahid mexanizmin yaradılması ilə bağlı təqdim olunmuş təkliflər paketi |
| **35.** | Plagiarizmlə sistemli mübarizəyə imkan verən əlçatan proqram təminatının yaradılması ilə bağlı zəruri tədbirlərin görülməsi | 01.09.2023 | Ali Attestasiya Komissiyası, Dövlət Turizm Agentliyi, elm və təhsil müəssisələri | Sakin Cabarov, Nicat Abbaslı, Mais Süleymanov, Nəriman Qəhrəmanlı | Qeyd olunan tələblərə cavab verən, istifadəyə verilmiş proqram təminatı |